*Enişi var, yoxuşu var.*
*Din davası, torpaq davası,*
*Rütbə, qazanc, otaq davası.*
*Başqa -başqa sahmanlı*
*İnsanların*
*Qara, ağ davası*
*İstək dustaqlığı,*
*İmkan dustaqlığı.*
*Dərya-dərya imkanlardan verilən*
*Nemət cirəsi*
*Pay qaşığı.*
*Mənim qayğım, mənim gücüm,*
*Mənim sınağımdır.*
*Mənim çağımdır.*

Məşhur "Rənglər" silsiləsi dünya sərbəst şeirinin Azərbaycanda yaranan böyük sənət şedevrlərindən biridir. "Rənglər" sərbəst şeirləri, ümumiyyətlə, XX əsr sərbəst şeirində yeni və böyük sənət hadisəsidir. Rəsul Rzanın "Rənglər" şeirləri ilə geniş mənada dünya sərbəst şeiri yeni rəng, yeni səviyyə qazanmışdır. Bədii düşüncənin və intellektual qavrayışın dərin siyasi-fəlsəfi mühakimə ilə vəhdətindən yoğrulmuş "Rənglər" şeir silsiləsində bütöv bir epoxanın düşüncəsi ifadə olunmuşdur. Hər misrası ciddi, düşündürücü, obrazlı düşüncələrdə əks-səda tapan bədii ümumiləşdirmələrdən yaranmış "Rənglər" sərbəst şeir silsiləsində ifadə edilən mətləblər və mühakimələr rəngindən asılı olmayaraq bütün insanlar üçün eyni dərəcədə müasir səslənir. "Rənglər" poetik silsiləsi - bədii sözün ağır yüklü qafiləsidir. Nazim Hikmətin dediyi kimi, "bu poeziyada tamamilə özünəməxsus bir yoldur". Rəsul Rzanın "Rənglər" silsiləsi dünya sərbəst şeirində yeni hadisədir. Bu şeirlərdə ayrı-ayrı rənglərin müxtəlif çalarları vasitəsilə həyatın və insanın dərin qavrayışları ifadə olunmuşdur. "Rənglər"də hər misra xüsusi bir ictimai mətləbi mənalandırır. Böyük istedad ondadır ki, Rəsul Rza "Rənglər" silsiləsinin bütün misralarında dərin ictimai və bəşəri fikirləri bənzərsiz, obrazlı ifadələrlə əks etdirmişdir. Eyni zamanda, şair hamıya məlum olan rənglərin naməlum çalarlarını kəşf etmişdir: "Ağ rəngin sevinc çaları": çiçəkli bahar budağı, göyərçin qanadları, Quzey qarı; "Şirmayı: "Ölümdən gələn qazanc, zindan barmaqlığı, İlməkli kəndir, Məftilli qırbac, Naxışlı yeddi kürəciklərin yeddi illik zəhməti. Ağrıdan ulayan ölkələrin Səkinəsi, Səlmanı, Əhmədi; "Püstəyi": Ala gözlərdə kədər; "Xurmayı": Müstəmləkələr; "Kürən": Cənublu ağaclar; "Badımcan": Əyyaş burnu; "Sürməyi": Aylı gecədə qarlı dağ təpəsi; Yaxud da "Sumağı": Döyüşdən çıxmış Qıratın nalı".

"Rənglər" silsiləsinin bədii müqəddiməsi olan "Uvertüra" həm də bu şeirlərin finalıdır, yekunudur. "Uvertüra" Rəsul Rzanın "Rənglər" fəlsəfəsini ümumiləşmiş şəkildə ifadə edir. "Uvertüra" - rənglərin qammasıdır. "Uvertüra" - rənglərdə ifadə olunan dərin mətləblərin poetik "amması"dır:

*Rənglər könlümüzdən keçir,*
*İsti, sərin küləklər kimi.*
*Nəğmələr, sözlər, səslər*
*Qəlbimizə dolur*
*Müxtəlif rənglər kimi*
*Rənglər xatirələr oyadır,*
*Duyğular oyadır.*
*Gördüyümüzdən*
*artıq görmək istəməsək,*
*Hər rəng adicə boyadır.*
*Rənglərin də musiqi kimi*
*Ahəngi var.*
*Ağrının, sevincin, ümidin də*
*Rəngi var.*
*Düşündükcə açılır.*
*Əlvan səhifələri rənglərin*
*Canlanır gözümdə rəngi*
*Ömrün, mübarizənin,*
*Qəlbin, nifrətin*
*Gecənin, səhərin*
*Və insan taleyinin.*

Xalq şairi Rəsul Rzanın yaradıcılığı Azərbaycan şeirinin də, dünya poeziyasının da fərqli rənglərini təbii şəkildə, bütün əlvanlığı ilə əks etdirən böyük sənət hadisəsidir. Şairin "hansı şeirim, hansı sözüm yaşayacaq məndən sonra" sualının bir cavabı var: Rəsul Rza sənətinin qüdrəti onun milliliyində və bəşəriliyində, eyni zamanda, bədii ifadə baxımından bənzərsizliyindədir. Bu meyarlara cavab verən böyük sənət ölməzdir.

Azərbaycan ədəbiyyatşünaslıq elmində xalq şairi Rəsul Rza haqqında qiymətli elmi əsərlər yazılıb nəşr edilmişdir.

Tanınmış ədəbiyyatşünaslardan Məmməd Arif Dadaşzadə, Məmməd Cəfər Cəfərov, Qəzənfər Paşayev, Yusif Seyidov, Bağır Bağırov, Vaqif Yusifli, Rahid Ulusel... və başqalarının tədqiqatlarında və məqalələrində Rəsul Rzanın sənət qüdrətinin mahiyyəti özünün dərin elmi-nəzəri həllini tapmışdır. Akademik Məmməd Arif Dadaşzadənin aşağıdakı mülahizələri xalq şairi Rəsul Rzanın bənzərsiz sənətinin ədəbi-tarixi əhəmiyyəti və orijinallığı obyektiv şəkildə ifadə olunmuşdur: "Diqqətli oxucu bu şeirlərin yalnız ifadə tərzində deyil, məzmun və mənasında bir təzəlik olduğunu hiss etməyə bilməz. "Rənglər" oxucuya ...assosiasiya vasitəsilə xarakterlər oyatmaq, onu düşündürmək yolu ilə həyatı və insanları yaxşı öyrənmək, dərindən dərk edilmək məqsədilə yazılmışdır."

Görkəmli müasirlərindən Nazim Hikmət, Qara Qarayev, Dmitri Şostakoviç, Tahir Salahov, İlya Selvinski, Eduard Mejevaytes, Boni Korey və başqaları xalq şairi Rəsul Rzanın böyük sənətinə dünya ədəbiyyatı faktı səviyyəsində yüksək qiymət vermişlər. Nazim Hikmətin fikirlərində ifadə olunmuş mətləblər Rəsul Rzanın böyük müasirlərinin fikirlərini ümumiləşdirilmiş şəkildə diqqətə çatdırır: "Rəsul Rza nə isə təzə bir şey yaradıb. Bu poeziyada tamam özünəməxsus bir yoldur. "Rənglər"də Rəsul Rza özü-özünü ötüb keçib."

Son günlərdə işıq üzü görmüş, filologiya elmləri doktoru Yaşar Qasımbəylinin "Rəsul Rza və çağdaşları" ktabı xalq şairinə həsr olunmuş əhəmiyyətli monoqrafik tədqiqatdır. Kitabda Rəsul Rzanın böyük sənətinə yüksək elmi qiymət verilməklə bərabər, şairin müasiləri ilə əlaqələri geniş şəkildə araşdırılıb ümumiləşdirilir. Məsələnin qoyuluşu ilk növbədə müasiri olmuş görkəmli sənətkarlara, ünsiyyət saxladığı yaradıcı insanlara Rəsul Rzanın münasibətini aydın surətdə görməyə imkan verir. Həm də müasirlərinin Rəsul Rzanın şəxsiyyətinə və sənətinə obyektiv elmi münasibəti, heyranlıq hissləri və qiyməti də monoqrafiyada öz əksini tapır. Ən yaxşı cəhətlərdən biri də ondan ibarətdir ki, Yaşar Qasımbəyli Rəsul Rza və çağdaşları məsələsini şəxsi münasibətlərin, qarşılıqlı əlaqələrin aydınlaşdırılması ilə birlikdə müxtəlif coğrafiyalarda yaşayıb-yaratmış adlı-sanlı yaradıcı şəxsiyyətlərin ədəbiyyat və sənət, yazıçı və zaman haqqındakı ortaq görüşlərinin, onların yaradıcılıq əlaqələrinin öyrənilməsinə istiqamətləndirmişdir. Beləliklə, "Rəsul Rza və çağdaşları" kitabı geniş mənada xalq şairinin epoxasına və ədəbiyyatına həsr olunmuş monoqrafiya şəklində meydana çıxmışdır.

Problemin öyrənilməsi üçün əhatə etdiyi sənətkarların geniş coğrafiyası Yaşar Qasımbəylinin elmi maraq dairəsinin və mütaliəsinin, tədqiqat sferasının miqyasını təsəvvür etməyə imkan verir. Yaşar Qasımbəyli bu kitabı ilə Azərbaycan ədəbiyyatının şəxsiyyətləri və proseslərinə qlobal masştabda baxmadığı və elmi qiymət verməyi bacaran mükəmməl dünyagörüşə malik tədqiqatçı olduğunu nəzərə çarpdırır.

Bütün bunlara görə filalogiya elmləri doktoru Yaşar Qasımbəylinin "Rəsul Rza və çağdaşları" monoqrafiyası görkəmli xalq şairi haqqında meydana çıxan qiymətli tədqiqat əsəri olmaqla bərabər, həm də Azərbaycan ədəbiyyatının üfüqlərinin genişliyini və əhəmiyyətini diqqət mərkəzinə çəkən dəyəri monoqrafiyadır. Kitab Rəsul Rzanın sənət qüdrətini sənətkar və zaman miqyasında oxuculara təqdim edir.

XX əsrin 60-cı illərində yazılmış və xalq şairinin "Rənglər" silsiləsinin ədəbi-bədii yekunu funksiyasını daşıyan "Əl vurmayın, rənglənib" şeiri mahiyyət etibarilə bütövlükdə Rəsul Rza sənətini məzmunca da, forma etibarilə də ümumiləşdirən mükəmməl sənət əsəridir. Şair "Əl vurmayın, rənglənib" xitabı ilə bütün yaradıcılığı boyu tənqid hədəfinə çevirdiyi nadanlıqlara, saxtakarlıqlara orijinal poetik məna vermişdir. O, həyatda, cəmiyyətdə nələrin öz rəngində olmadığını aşağıdakı misralarla ifadə etmişdir:

*Dodaqlara qonmuş təbəssüm,*
*Buqələmunlar.*
*Təcrübəli meymunlar.*
*Qara qatıq.*
*Ağ qurum.*
*Yəməli qum.*
*Məhəbbətin surraqatı.*
*Məqsədli alqışlar.*
*İnsan qəlbinin*
*Boş olduğu anlar.*
*Fil görünən birələr.*
*Səməd Mənsur haqqında xatirələr.*
*Doğruya bənzəyən yalanlar.*
*Şalvarlı, köynəkli,*
*Donlu, ətəkli adamlar.*
*Hər cürə boya.*
*Toydan yasa,*
*Yasdan toya*
*Tələsən insanlar.*

Bununla belə, Rəsul Rza sənətində işıq, nikbinlik, sabaha inam, yaşamaq eşqi, gələcəyə ümid duyğuları bütün rənglərdən üstündür. Şairin şeirlərində işıq qaranlıqdan deyil, ümiddən doğur. Xalq şairi Rəsul Rza Azərbaycan xalqının böyük ümidlərdən doğan işıqlı gələcəyinin qüdrətli sənətkarıdır:

*Səpələnib hər yana*
*Dünyanın rəngləri;*
*Məhəbbət, nifrət,*
*Sevinc, kədər*
*Hərəsi bir duyum oyadır çiçəklər.*
*Çöllər çəmənlidir, dağlar qarlı.*
*Yuxum həyat dadlıdır,*
*Dünya baharlı.*
*Arzularımdır - açılıb əlvan.*
*Baxıram ənginliklərə*
*Sözlərim doyumsuz,*
*Qəlbim ümidli.*
*Bir yanda Şah dağı,*
*Bir yanda Savalan.*
*Arzulardan doyarmı,*
*Rəngsiz yuxulara uyarmı,*
*Ümidi, diləyi sağ olan?*

Xalq şairi Rəsul Rza XX əsr Azərbaycanın ədəbiyyatının görkəmli yaradıcılarından biri olmaqla bərabər, dünya poeziyasında özünəməxsus yeri olan novator sənətkardır. Böyük şairin dərin ictimai məzmuna və orijinal bədii formaya malik olan bənzərsiz sənəti Azərbaycan ədəbiyyatının dünya şeir mədəniyyətinin inkişafındakı rolunu və yerini nümayiş etdirir.

Rəsul Rza sərbəst şeir məktəbi yaşayır, şairin böyük sənət ənənələri yaradıcılıqla davam etdirilir.